# 32 illik yurd həsrətinin sonu

***2020**-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun və xalqımızın düşmən üzərində parlaq qələbəsi ilə başa çatdı. Qazanılan zəfərin nəticəsi olaraq noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli Bəyanata əsasən işğalçı ölkə Ağdam, Kəlbəcər və Laçın rayonlarını bir güllə atılmadan geri qaytardı. Noyabrın 20-də Ağdam rayonu tamamilə Azərbaycan Ordu bölmələrinin nəzarəti altına keçdi. Vətən müharibəsində tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Prezident İlham Əliyev 31 iyul 2023-cü ildə Sərəncam imzalayıb. Sərəncama əsasən hər il 20 noyabr Ağdam şəhəri günü kimi təntənəli şəkildə qeyd edilir.*

Xatırladaq ki, rayonun böyük hissəsi - 73 faizi 1993-cü il iyulun 23-də Ermənistan Silahlı Qüvvələri tərəfindən zəbt edilmişdi. 1 şəhər, 122 kənd, 24 min 446 yaşayış binası, 48 sənaye və tikinti müəssisəsi, 160 məktəb binası, 65 səhiyyə mərkəzi, 373 mədəniyyət ocağı, 1 teatr, 3 məscid və 2 muzey dağıdılıb. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. 1930-cu ildə yaradılan Ağdam rayon sakinlərinin sayı hazırda 204 mindən çoxdur.

İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarda - Qarabağ və Şərqi Zəngəzurda bərpa, yenidənqurma işləri, həyat və yaşayış üçün lazımi yeni infrastrukturların qurulması, həyata keçirilən hüquqi islahatlar, digər bu kimi müsbət addımlar ölkənin getdikcə artan iqtisadi nüfuzunun əyani göstəricisidir.

Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində müasir infrastrukturun qurulması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün yeni yaşayış məntəqələrinin inşası Ağdamda da sürətlə davam etdirilir. Rayonun işğal illərində tamamilə viran qoyulmuş kəndləri yenidən qurulur, doğma torpaqlarımıza həyat qayıdır. Şəhərin Baş planına uyğun olaraq əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verən yaşayış məhəlləri salınır. Ağdam şəhəri elə bir layihə ilə qurulur ki, dünyada bənzəri olmayacaq. Təbii ki, bütün bunlar ağdamlıların böyük sevincinə və gələcək arzularına qol-qanad verir. Ağdamın bərpa, yenidənqurma, inkişaf, çiçəklənmə dövrü yüksək səviyyədə davam edir. Burada aparılan genişmiqyaslı bərpa və quruculuğa dövlət başçısı şəxsən özü nəzarət edir. Bu mənada Prezident İlham Əliyevin bu rayona hər səfəri dirçəlişə yeni töhfələr verir.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış ölkənin sosial-iqtisadi inkişafına dair 5 Milli Prioritetdən biridir. Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən aprelin 2-də Bakının Qaradağ rayonundan Ağdam rayonunun yenidən inşa edilən Sarıcalı kəndinə ölkənin müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə 28 ailə - 110 nəfər köçürülüb.

Qeyd edək ki, Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri inşa edilib. Eyni zamanda kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

Sarıcalı kəndində yerli icra strukturları üçün çoxfunksiyalı inzibati bina inşa edilib. Kəndin girişində inşa edilmiş bu binada bir sıra qurumlar fəaliyyət göstərəcək. Bu isə əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına və vətəndaş məmnunluğunun təmin edilməsinə imkan yaradacaq. Binada müxtəlif iş otaqlarında işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün bütün şərait yaradılıb.

Kənddə inşa olunmuş bütün qeyri-yaşayış binalarının, o cümlədən inzibati binanın damında günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin ediləcək. Kənddə artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

Sarıcalı kəndində müasir standartlara uyğun inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi və onların sağlam mühitdə yetişmələri üçün hər cür şərait yaradılıb. Otaqların hər biri zəruri avadanlıqla təchiz olunub. Burada uşaqların intellektual, fiziki və əqli inkişafının təmin edilməsi, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması kimi meyarlara xüsusi diqqət yetiriləcək. Körpələr evi-uşaq bağçasında 5 qrup fəaliyyət göstərəcək.

Kənddə inşa edilən 14 sinif otağı olan 360 şagird yerlik məktəbdə təhsil prosesinin səmərəli şəkildə həyata keçirilməsi üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada laboratoriyalar, texnologiya, biologiya və informatika otaqları, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.









32 ildən sonra əzəli yurd yerlərinə qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, igid əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canını fəda edən qəhrəman şəhidlərimizə rəhmət diləyiblər.

Ağdam işğaldan azad olunan gün Prezident İlham Əliyev demişdir: "İndi Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. Biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik". Məhz bu gün həmin sözlərin yerinə yetirilməsinin əməli şahidi oluruq. Ağdam bərpa edilərək Azərbaycanın ən zəngin, mədəniyyətin, iqtisadiyyatın yüksək inkişaf etdiyi rayonlarından birinə çevrilir. Bərpa-quruculuq Ağdamın tezliklə nəinki Azərbaycanın, həmçinin regionun ən gözəl və müasir şəhərlərindən birinə çevriləcəyini deməyə əsas verir.

Hazırda işğaldan azad olunmuş ərazilərdə keçmiş məcburi köçkünlərlə yanaşı, bölgədə aparılan bərpa-yenidənqurma işlərində çalışan fiziki şəxslər, yeni qurulan dövlət müəssisələrində işləyən 40 min nəfərə yaxın insan yaşayır.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2025.- 6 aprel (№ 66).-